*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 52-57*
https://doi.org/10.62837/2024.6.52

**İRADƏ QAFUR QIZI RƏSULI**
***ADMİU-nun dosenti,***
***filologiya üzrə fəlsəfə doktoru***

# XX ƏSR AZƏRBAYCAN ƏDƏBİYYATINDA MİLLİ XARAKTER PROBLEMLƏRİ

**Açar sözlər:** Azərbaycan ədəbiyyatı, dramaturgiya, XX əsr, milli xarakter
Ключевые слова: азербайджанская литература, драматургия, XX век, национальный характер.
Keywords: Azerbaijani literature, dramaturgy, 20th century, national character.

Azərbaycan ədəbiyyatı Sovet dövrü özünün bir sıra ziddiyyətlərinə baxmayaraq, mədəniyyətimizin ayrılmaz bir hissəsi olub, XX əsr ədəbiyyat tariximizdə mühüm bir mərhələ təşkil edir. Həmin dövrün bütün təzyiq və təqiblərinə, ideoloji təsirlərinə rəğmən ədəbiyyatımız yaşamış və bir çox qiymətli sənət nümunələri yaranmışdır.

"60-cı illər ədəbiyyatının ənənəvi mövzulara tamam fərqli bədii təfəkkür işığında nəzər salması, öncə özünü onda göstərirdi ki, bu nəsrin və dramaturgiyanın yaradıcıları sənətin estetik qayəsini əvvəlkindən daha geniş təsvir edirdilər". "60-cı illərdə lirik-psixoloji xarakterin təşəkkülü və insan amilinin ön plana keçməsi bədii ədəbiyyatda böyük əhəmiyyət kəsb etdi. Bildiyimiz kimi, lirik-psixoloji xarakter məsələsi hər bir dövrdə ədəbiyyatı, o cümlədən sənətşünaslığı məşğul edən ən ümdə problemlərdən biri olmuşdur". "Ənənəvi sovet ədəbiyyatından fərqli olaraq yeni Azərbaycan ədəbiyyatı (istər nəsrdə, istər də dramaturgiyada) həyati gerçəkliyi bədii gerçəkliyə çevirmək üçün çox böyük üstünlüklərə malik oldu". "İstər tarixi, istərsə də mənəviyyat problemlərindən bəhs edən əsərlərdə yazıçının əsas məqsədi şəxsiyyətin daxili aləminin mübhəm çalarlarını, psixoloji xarakterini, insan taleyinin zaman axarında başqalaşmasını, başqa sözlə, zaman-insan-tale problemlərini aydınlatmaqdan, mənəvi suverenliyi ifadə etməkdən ibarət olub". Çünki, "Yazıçının predmeti xislətdir və onun istedadı xislətin dərinliklərinə nə dərəcədə enə bilməsi ilə müəyyənləşir." [1.səh.334]. Sözügedən illərdə yazılan əsərlərdə lirik-psixoloji xarakterin və insan amilinin ön plana keçməsi əslində sovet siyasi rejiminə qarşı etirazın bədii təcəssümü idi. Başqa sözlə, yazıçılar birbaşa onları əhatə edən insanları bədii qəhrəman səviyyəsinə qaldırmaq imkanı əldə etdilər. Akademik Məmməd Cəfər yazırdı: "Hər bir xalqın ədəbiyyatının müsbət qəhrəmanları o xalqın həyatının ən qabaqcıl meyllərini, xalqın içərisindən doğan böyük ideyaları, xalq tarixinin ən parlaq səhifələrini, xalqın qüdrətini, ləyaqətini, istedadını, yaşamağa qabil olması hüquqlarını əks etdirir. Müsbət qəhrəmansız böyük ədəbiyyat təsəvvür etmək çox çətindir." [2.səh.169].

Lirik – psixoloji üslubun dramaturgiyada geniş vüsət alması həm də milli xarakterin təşəkkülünə və insan mənəviyyatının bütün çalarlarının ön plana

keçməsinə meydan açdı. “Dramaturgiyamızda bu bədii təmayülə olan zəruri ehtiyacı xalq yazıçısı İlyas Əfəndiyev belə açıqlayır: “İnsanın mənəvi aləmini-
hissini, həyəcanını, arzularını, yaşadığı sevgini, çəkdiyi iztirabı açıb göstərən lirik-psixoloji dram əsərlərinə böyük ehtiyac vardı. Əsasən, insanın daxili aləmini hədəfə alan bu cür əsərlər heç şübhəsiz ki, dövrümüzün ən aktual, ictimai –sosial məsələlərini də əhatə eləyirdi.” [3.səh.109].

“Azərbaycan ədəbiyyatında milli xarakterin Vaqif (“Vaqif”-S.Vurğun), Cahandar ağa (“Dəli Kür”-İ.Şıxlı), Bayram bəy (“Geriyə baxma,qoca”- İ.Əfəndiyev), Böyük bəy (“Mahnı dağlarda qaldı”- İ.Əfəndiyev), Kərbalayı İsmayıl (“Qarlı aşırım” -F.Kərimzadə), Rüstəm kişi (“Böyük dayaq”-M.İbrahimov) kimi klassik nümunələri vardır. Və bu əsərlərdə milli xarakterin bir sıra ciddi örnəkləri ilə rastlaşırıq. Müəlliflər bu obrazların timsalında Azərbaycan xalqının mənəvi-əxlaqi dəyərlərini xarakterizə etmiş və bu xarakterlər vasitəsilə babalarımıza məxsus mərdlik, əyilməzlik, qürur, namus-qeyrət, kişilik, əxlaqi dəyərlərə sədaqət və s. kimi mental keyfiyyətləri ümumiləşdirməyə çalışmışdır. Bu bir həqiqətdir ki, milli xarakter hər bir ədəbiyyatın özünəməxsusluğunu təyin edən amillərdəndir. “Hər bir milli ədəbiyyat sözün geniş mənasında milli xarakterin təcəssümündən ibarətdir və buna görə də milli gerçəkliyin vacib problemlərinə toxunan əsərlər adətən milli xarakter haqqında, başqa sözlə desək, xalqın mənəvi-əxlaqi simasının, psixologiyasının, təsəvvürlərinin tarixən təşəkkülü, keçdiyi mürəkkəb inkişaf yolu haqqında geniş, qayğılı düşüncə kimi ümumiləşir”. [4.səh.109]. Səciyyəvi bir neçə nəsr əsərinə - “Dəli Kür”, “Böyük dayaq” və “Söyüdlü arx” romanlarına nəzər salaq: Xalq yazıçısı İsmayıl Şıxlının “Dəli Kür” romanında Cahandar ağa obrazı kişilik, cəngavərlik, ipə-sapa yatmayan, özünəməxsus daxili “məni” olan milli xarakterdir. Cahandar ağa igiddir, cəsurdur, gözünə tuşlanan gülələdən belə qorxub geri çəkilməyi ağlına gətirmir. Cahandar ağanın xarakterində bir böyüklük var, müdriklik və təmkin var. Cahandar ağa deyir: “Mənim öz ağlım var, istədiyim kimi yaşamışam, istədiyim kimi də öləcəm.” O, yaşadığı mühitin qanunlarını çox yaxşı bilir və bu qanunlardan kənara çıxmır. O, dövrün namus qanununa səcdə edən adamdır. Namusa, təmiz ada düşən ləkədən çox dünyada onu qorxudan heç nə yoxdur. “Dəli Kür” romanı Cahandar ağanın Allahyarın kəbinli arvadını- Mələyi qaçırması hadisəsinə ailəsinin, xüsusən arvadı Zərnigarın kəskin reaksiyası ilə başlayır.Atdığı addımla bağlı Cahandar ağanın narahatlığı, haqsızlığını daxilən duyması, bütün bunlardan dolayı dərin peşmançılıq hissi keçirməsi müəllif təhkiyəsində dönə-dönə qeyd olunur. Neçə illər baş yastığa qoyduğu arvadının, həmişə boy-buxunu ilə fəxr etdiyi oğlunun evdən küsüb getməsi onun üçün həqiqi dərd olur. Bu “yük”ü Cahandar ağa çox çətin çəkir. Daim əli tətikdə olan, zəhmindən yer yarılan bu kişinin arvadı, oğlu sarıdan çəkdiyi narahatçılıqlar, daxilən yaşadığı narahat hisslər onun həqiqi insani xarakterini ortaya qoyur. “Hətta onun “Əşi, nə olub, eldən çıxarı bir iş tutmamışam ki? Elə dədə-babadan iki arvad saxlamaq peşəmiz deyilmi?” – deyə özünə ürək-dirək verməsində də peşmançılıq hissi aşkar görünür”. Cahandar ağa öz hərəkətlərində və sözündə sərtdir, qətidir. Dediyi sözdən, elədiyi hərəkətdən geri dönən deyildir. Sözünün qabağına söz çıxarılmasını xoşlamır. [5.səh.110]. Əslində milli xarakter xalq təşəkkül tapdığı dövrdən onun həyatının, özünüdərkinin, fərdi özünüifadəsi və özünütəsdiqinin əsas əlaməti olaraq təşəkkülə başlayıb. Böyük rus yazıçısı

N.V.Qoqol yazmışdır: "Həqiqi millilik sarafanı təsvir etməkdə deyil, xalq ruhunu ifadə etməkdədir". [6.səh.34]. Hər bir sənətdə olduğu kimi ədəbiyyatda da milli xarakter sənətkarın xalq həyatı ilə yaxınlığından, onun istedadının xalq ruhuna bağlılığından və bu ruhu əks etdirmək imkanından meydana çıxır.

Xalq yazıçısı Mirzə İbrahimovun "Böyük dayaq" romanı da milli xarakter yaradıcılığı baxımından diqqəti cəlb edən bədii örnəklərdən biridir. Bu romanda xalq və kolxoz həyatında cərəyan edən ictimai-siyasi hadisələr fonunda milli xarakterin maraqlı, yaddaqalan örnəkləri yaradılmışdır. Xüsusilə, yazıçının yaratmış olduğu Rüstəm kişi obrazı özünəməxsusluğu, daxili-mənəvi dünyasının hərtərəfli, dolğun canlandırılması ilə diqqəti cəlb edir. Romanın süjet xəttinin inkişafında, konfliktin yaranmasında, bir sıra surətin xarakterinin açılmasında əsas rol oynayır. Mükafatlar, təriflər, inam və hörmət, mötəbər iclaslarda adının tez-tez çəkilməsi Rüstəm kişini çaşdırır, "misilsiz sədr, nümunəvi sədr" kimi sözlər faciəsini dərinləşdirir. O, özü-özünə Muğanda bərabəri olmayan adam kimi görünür. Bütün bunlar Rüstəm kişidə sərt hərəkətlər doğurur və o, hökmlü ifadələrlə danışır. Rüstəm kişini ən çox düşündürən oğlu Qaraşla gəlini Maya arasındakı təzaddır. Qaraş təbiətən həlim xasiyyətlidir, Maya isə iddialı, ötkəm. Yazıçı Rüstəm kişinin bütün situasiyalarda xarakterinin təsvirini önə çəkmişdir. Bütün bunlar onun təzadlı və mürəkkəb xarakterə malik olmasını göstərir. Digər tərəfdən Rüstəm kişi özünün xarakter və təbiətinə uyğun danışır.

"Böyük dayaq" romanı milli xarakter yaradıcılığı baxımından xalq ədəbiyyatından qaynaqlanan çalarlarla zəngindir ki, məhz bu aspekt onun uğur qazanmasını şərtləndirmişdir.

Öncə qeyd etdiyimiz kimi, İsmayıl Şıxlının "Dəli Kür" və Fərman Kərimzadənin "Qarlı aşırım" romanları yaxın keçmişimizə, milli xarakterin inkişafına yeni münasibətin, tarixə müasir baxışın ifadəsi kimi müvəffəqiyyət qazandı. "Qarlı aşırım" romanında yazıçı Kərbəlayi İsmayılı kişiliyin, insanlığın bədii heykəli səviyyəsinə qaldırır, oxucular onun simasında həqiqi milli xarakterin ən gözəl xüsusiyyətlərini görürlər. Sovetlər dönəmində milli xarakter yaratmaq çox çətin problem, əslində mövcud ideologiyaya qarşı çıxmaq demək idi. Belə qəhrəmanlar təkcə yaşadıqları dövrün tarixi olaylarını, psixologiyasını deyil, həm də yüz illərlə formalaşmış xəlqi və milli ənənələri mürəkkəb bir şəkildə özlərində əks etdirən insan xarakterləri idi.

Xalq yazışısı İlyas Əfəndiyevin 1960-cı ildə lirik-psixoloji üslubda qələmə aldığı "Körpüsalanlar" romanında yaratmış olduğu Səriyyə obrazı yalnız onun yaradıcılığında deyil, bütövlükdə Azərbaycan nəsrində ən çox mübahisə obyektinə çevrilən xarakterlərdən biridir. Romanda bir sıra yaddaqalan obrazlar yaradılsa da, əsas diqqət Səriyyənin xarakterinə yönəldilmişdir. Romanda əsas mübahisə doğuran Səriyyənin ərli qadın olduğu halda özünü sərbəst aparması, ailədə ənənəvi ər-arvad münasibətlərinə məhəl qoymamasıdır. Vaxtilə Səriyyə obrazını tənqid edənlər məhz onun xarakterindəki bu cəhətlərdən çıxış etmişlər. Səriyyənin Adillə münasibətlərinin mənəvi əsaslar üzərində qurulmadığı onun etiraflarında əksini tapmışdır. Xasiyyətcə sərbəstliyi və daxili azadlığı sevən Səriyyənin xarakter, hərəkət və davranışlarındakı dəyişikliklər onun tale yoluna Qəribcanın çıxmasından sonra daha aşkar şəkildə başlayır. Romanda Səriyyənin xarakteri milli – mənəvi

dəyərlərə söykənən əxlaq kodeksi ilə şəxsi səadəti arasındakı təzad fonunda aşkarlanır. “Mən duyğuların əsarətinə, köləliyinə nifrət edirəm” – deyən Səriyyə daxilən azaddır. [8.səh.355]. Beləliklə, Səriyyə bir xarakter kimi azad, sərbəst olduğu adət-ənənələrin sərt qəliblərini uçura bildiyi üçün diqqəti cəlb edir. Səriyyə cəmiyyətdə özünü təsdiqinə öz mübarizəsi və ciddi xarakteri ilə nail olur. Yazıçı obrazın xarakterini bütün incəliyi və dolğunluğu ilə təqdim edir. Ona görə də bu obrazlar təbii görünür.. [9.səh.519].

Beləliklə, Azərbaycan nəsrində insan amilinin ön plana keçməsi adi insanların mənəvi dünyasına ciddi nüfuzetmə bu nəsrin bütün fenomenal xüsusiyyətlərini, mahiyyət səciyyəli cəhətlərini müəyyən edən başlıca cəhət oldu. Azərbaycan ədəbiyyat və mədəniyyətində milli mənlik şüuru XX əsrin önlərində xüsusi bir intensivliklə formalaşdı və milli xarakter qabarıq bir şəkildə ön plana keçdi.

1990-cı ildən sonra Akademik Dram Teatrının səhnəsində klassik və müasir Azərbaycan, rus və dünya dramaturqlarının pyesləri tamaşaya qoyuldu. Beləliklə, teatr vaxtilə tamaşaçılara göstərdiyi əsərləri yeni quruluşda oynamaqla yanaşı, İ.Əfəndiyevin “Tənha iydə ağacı” (6.03.1991, qur.rej. M.Fərzəlibəyov), “Dəlilər və ağıllılar” (9.09.1992), “Hökmdar və qızı” (14.10.1996. qur.rej. M.Fərzəlibəyov), B.Vahabzadənin “Hara gedir bu dünya” (30.09.1991, qur.rej. B.Osmanov), “Özümüzü kəsən qılınc” (20.04.1998, qur.rej. A.Kazımov), Qarsio Lorkanın “Dişi canavar” (24.12.1991, qur.rej. M.Fərzəlibəyov), M.Haqverdiyevin “Ax qadınlar, qadınlar” (30.06.1992, qur.rej. M.Fərzəlibəyov), Beləliklə, biz bu faktlar müstəvisində görürük ki, “90-cı illərin ənənəsi məhz 70-ci illərdən gəlir. 90-cı illərdə milli emosiyaların püskürməsi, milli özünüdərk prosesinin sürətlənməsi 70-ci illərin atmosferilə üzvi şəkildə əlaqələnir.” [10.səh.107].

Xalq şairi Bəxtiyar Vahabzadənin “Fəryad”, “Özümüzü kəsən qılınc” və “Dar ağacı” tarixi dramlarının tamaşalarında da obrazın xarakterinin çoxçalarlı zəngin mənəvi aləminin parlaq təcəssümü görükür. Dramaturqun tarixi şəxsiyyətə - Nəsimiyə həsr etdiyi “Fəryad” tarixi faciəsində əslində Nəsimi iştirak etmirdi, burada şərtiliklə tarixilik arasındakı qarşılıqlı münasibətlər önə çəkilmişdir. Sonradan bu münasibət öz ifadəsini “Dar ağacı” pyesində öz bədii ifadəsini tapdı. Həmin pyesdə də Babəkin özü yox, teyfi iştirak edirdi və bu teyfin ittihamları real tarixi mənzərəni duymaq üçün kifayət idi. Tarixi pyesləri üçün orijinal olan həmin üslub keyfiyyəti B.Vahabzadənin dramlarını fərqləndirən xüsusiyyətə çevrildi. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra vətən tarixini öyrənməyin vacibliyini və ona olan marağın daha da artdığını görən B.Vahabzadə vətəndaş qeyrətini susdura bilmədi. Bu dəfə tarixin daha dərin qatlarına işıq salaraq Azərbaycan adlı varlığın köklərini araşdırmağı qarşısına məqsəd qoydu. [11.səh.20].

Xalq yazıçısı İlyas Əfəndiyevin “Şeyx Xiyabani” dramının tamaşası da milli xarakter yaradıcılığı baxımından diqqəti cəlb edən bədii örnəklərdən biridir. Əsər XX əsrin əvvəllərində (1920-ci ildə) şah üsul-idarəsinə qarşı üsyan edərək Təbrizdə milli Azərbaycan hökuməti qurmuş inqilabçıların rəhbəri görkəmli ictimai xadim, xalqımızın qəhrəman oğlu Şeyx Məhəmməd Xiyabaninin xatirəsinə həsr olunmuşdur. Əsərdə olduğu kimi milli azadlıq və istiqlaliyyət uğrunda, əsarət və köləlik əleyhinə, xarici və daxili təcavüzə qarşı mübarizə ideyası tamaşanın da

mərkəzinə çəkilmişdir. Tamaşanın ən böyük uğuru isə azadlıq mücahidi Xiyabani obrazının ilk dəfə Azərbaycan teatrının səhnəsinə gətirilməsidir.

Xalq şairi Nəriman Həsənzadə 70-ci illərin ikinci yarısından etibarən böyük ustalıqla Hüseyn Cavid və Səməd Vurğunun ədəbi ənənələrini davam etdirərək mənzum tarixi dram əsərləri yazmağa başlamışdır. Şairin "Bütün Şərq bilsin", "Atabəylər", "Pompeyin Qafqaza yürüşü" kimi mənzum tarixi dramları Akademik Milli Dram teatrının səhnəsində nümayiş etdirilərək böyük uğur qazanmışdır. Nəriman Həsənzadənin "Atabəylər" dramı da milli xarakter yaradılışına fərqli yanaşma tərzi ilə seçilən orijinal bədii örnəklərdən biridir.

Təhlilə cəlb etdiyimiz bu dram əsərlərində görkəmli sənətkarlar xalqın milli istiqlaliyyətini və milli birliyini tərənnüm etməklə həm də hər bir obrazın fərdi milli xarakterini özəlliklə təsvir etmişlər.

**İradə Qafur qızı Rəsuli**

**XX əsr Azərbaycan ədəbiyyatında milli xarakter problemləri**
**Xülasə**

XX əsr ədəbiyyat tariximizdə mühüm bir mərhələ təşkil edir. Həmin dövrün bütün təzyiq və təqiblərinə, ideoloji təsirlərinə rəğmən ədəbiyyatımız yaşamış və bir çox qiymətli sənət nümunələri yaranmışdır.

Məqalədə milli xarakterin təcəssümü problemi yazıçıların əsərlərində, əsasən xalq yazıçısı İ.Əfəndiyevin "Körpüsalanlar", İ.Şıxlının "Dəli Kür", M.İbrahimovun "Böyük dayaq" və s. dramları elmi-nəzəri kontekstdən əhatəli təhlil edilir. Qeyd olunur ki, sözü gedən dramaturqların dram əsərləri Akademik Milli Dram Teatrının səhnəsinə yeni obrazlar, yeni xarakterlər və müasir qəhrəman tipi gətirdi. Lirik – psixoloji üslubun dramaturgiyada geniş vüsət alması həm də milli xarakterin təşəkkülünə və insan mənəviyyatının bütün çalarlarının ön plana keçməsinə imkan yaratdı.

**Irada Qafur gizi Rasuli**
**Problems of national character in XX th century Azerbaijani literature**
**Summary**

The XX th century is an important stage in our literary history. Despite all the pressures and persecutions and ideological influences of that period, our literature was survived and many valuable art examples were created.

In the article, the problem of the embodiment of the national character is discussed in the works of writers, mainly "Korpusalanlar" by I. Efendiyev, "Deli Kur" by I. Shikhli, "Boyuk Dayaq" by M. Ibrahimov, etc. dramas are comprehensively analyzed from the scientific-theoretical context. It is noted that the drama works of the above-mentioned playwrights brought new images, new characters and a modern type of hero to the stage of the Academic National Drama Theater. The spread of the lyrical-psychological style in dramaturgy also challenged

the formation of the national character and the foregrounding of all shades of human spirituality.

**Ирада Гафур кызы Расули**

**Проблемы национального характера в Азербайджанской литературе XX века**

**Резюме**

XX век — важный этап в нашей литературной истории. Несмотря на все давление, гонения и идеологические влияния того периода, наша литература выжила и было создано множество ценных образцов искусства.

В статье проблема воплощения национального характера рассматривается в произведениях писателей, главным образом «Корпусаланлар» И. Эфендиева, «Дали Кур» И. Шихлы, «Бойук Дайаг» М. Ибрагимова и др. драмы всесторонне анализируются в научно-теоретическом контексте. Отмечается, что драматические произведения вышеупомянутых драматургов принесли на сцену Академического национального драматического театра новые образы, новые характеры и современный тип героя. Распространение лирико-психологического стиля в драматургии также поставило задачу формирования национального характера и выпустиль возможности на первый план всех оттенков человеческой духовности.

**Ədəbiyyat siyahısı**

1. Elçin. Seçilmiş əsərləri. 10 cilddə, 10-cu cild, Bakı, "Çinar-çap", 2005, səh.334
2. Məmməd Cəfər. Ədəbiyyatda müsbət qəhrəman. "Kommunist" qəz.,1954, 1 dekabr.
3. Dilsuz. Həqiqi sənət yollarında. (İ.Əfəndiyevlə müsahibə), "Azərbaycan" jurnalı, 1984 №5, s.109
4. Hüseynli A. Həyat və sənət həqiqəti. Bakı "T" Nəşriyyat-Poliqrafiya Mərkəzi, 2001. S.164
5. Salamoğlu T.İsmayıl Şıxlının bədii nəsri.Bakı,2014. səh.110
6. Гоголь Н.В. Собр.соч. В.6-ти то мах. Т.6, М, ТИХЛ 1953, с.34.
7. Əfəndiyev İ. Mahnı dağlarda qaldı. Seçilmiş əsərləri yeddi cilddə, üçüncü cild. Bakı "Çinar-Çap", 2002. səh.555
8. Əfəndiyev İ. Hər bir əsərim ömrümün bir parçasıdır. Seçilmiş əsərləri, yeddi cilddə, yeddinci cild, Bakı, "Çinar-çap", 2002, səh.519
9. Vəliyev Ə.Əqidə, Ruh və Teatr (XX əsrin II yarısında Azərbaycan mədəniyyətində milli teatr konsepsiyalarının sosial-fəlsəfi və siyasi-ideoloji paradiqması), Bakı, 2009, səh.107
10. Axundova Z. Tarixi pyeslərin Azərbaycan teatrında səhnə təcəssümü. Sənətşünaslıq elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın avtoreferatı, Bakı 2005, s. 20

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru, dosent Elmira Eldar qızı Əlizadə tərəfindən çapa tövsiyə olunmuşdur**